

■ ƏBÜLFƏZ ÜLVİ

## QIŞ GƏLİB

Qış gəlib, ağ libas geyinib bağ da,
Düzlərə ağappaq gəbə düşübdür.
Bu rəngə boyanıb təpə də, dağ da,
Sanki ağ bürünmək dəbə düşübdür.

Elə bil fəxr edir qar yağa-yağa,
Təbiət fəxr ilə özün ağardır.
Verilən dəyərdir yoxsa torpağa,
Beləcə torpağın üzün ağardır.

Çən gəlir, gəldikcə böyüyür boyu,
Yurd salıb zirvənin düz kəkilində.
Bəlkə imansızın imanıdır bu,
Qayıdır özünə çən şəkilində.

Sanarsan tufandan verirlər xəbər,
Qarğalar sevincdən qar-qar salıbdır.
Elə bil küləyi incidibdilər,
Onuncun qışqırıq, havar salıbdı.

Nə qədər yağır qar, qoy yağsın bərk-bərk,
Təki ürəklərdə dərd oyanmasın.
Kaş bir də o qanlı yanvardakı tək,
Göydən ağ tökülüb, al boyanmasın.

## DÜNYADA

Düzdür ruh da vardır, sevgi də vardır,
Onlarsız qəm olar leysan dünyada.
Görən hansı daha etibarıdır,
Haqq desən, deməli haqsan, dünyada.

Sevgisiz ruhun da bürünər yasa,
Dünya da, aləm də sürünər yasa,
Ruh varsa canında, sevgi yoxdursa,
Nəfəsin olsa da, yoxsan dünyada.

Bəlkə də can atsan, olarsan mələk,
Bəlkə də çin olar, hər arzu, dilək,
Özün qazanasan sevgini gərək,
Sevgidən verilmir ehsan dünyada.

Yeri var, yurdu var sədaqətin də,
Saf duyğu sevəni qoymaz çətində,
Hər kəs mətin olsa məhəbbətində,
Qalmaz zərrə qədər nöqsan dünyada.

Ay Ülvi, gör nələr vardır dərində,
Ruh gəldi, gedərdi günün birində,
Məhəbbət olsaydı onun yerində,
Əbədi yaşardı insan dünyada.

## QƏRİBƏ QATARDIR, ÖMÜR QATARIM

Elə sürət açıb ömür qatarım,
Onu saxlayacaq heç bir bucaq yox.
Elə alıbdır ki, əmri qatarım,
Sonundan savayı dayanacaq yox.

Şütüyür, nə gözə, nə sözə baxar,
Neyləsən, işinə qarışmaq olmur.
Bəlkə də hər şeylə yarışmaq olar,
Ömür qatarımla yarışmaq olmur.

Getdikcə ayları, illəri yeyir,
Özünün ruzisi vardır onun da.
Ömrün hər vaxtında, hər rəng don geyir,
Amma ağı sevir ömrün sonunda.

Yolundan döndərməz onu heç bir hal,
Hər kəsin varıdır bu nəqliyyatdan.
Nə dəmir sərf olub, nə özgə xammal,
Bu qatar yaranıb yalnız həyatdan.

Qəribə qatardır, ömür qatarım,
Qəribə işlərə heç vaxt qatılmır.
Tək məni aparır ömür qatarım,
Məndən özgəsinə bilet satılmır.

## DEYƏRDİM

Ütülə sözünün qırışlarını,
Xoş sözə, xoş olan meydi deyərdim.
Alnının, üzünün qırışlarını,
Ötən günlərinin qeydi deyərdim.

Nadanlıq hopdurma bacar mayana,
Tac vermə, sevgidən tac almayana,
Sülh quşu olmağı bacarmayana,
Didib, parçalayan Leydi deyərdim.

Düz deyib atalar:-zaval yox düzə,
Ölünü dirildir bəzən möcüzə,
Zəka ocağında bişməyən sözə
Bişməmiş yemək tək çiydi, deyərdim.

Ay insan, dünyadan az misal gətir,
Vicdanı, qeyrəti haqqa et çətir,
Məncə bu dünyada ən gözəl ətir,
Övladda qoxuyan iydi deyərdim.

Şair hər yetənə deyil yenəsi,
Hər əhsən sözünü yeməz sinəsi,
Vətənin, millətin oğul deməsi,
Ülviyə ən böyük rəydi deyərdim

## EKVİVALENT

Gəlin qısqanclığı danlamayaq biz,
Günah qısqanclığı yaradandadır.
Qısqanclıq doğuşdan olub tərtəmiz,
Cana dağ vursa da, yeri candadır.

Qısqanclıq həmişə pis deyil, xeyir,
Qızıldır, üstündə əyar da olur.
Bəzən qısqanclıqlar faciə verir,
Bəzən sevgimizə meyar da olur.

O, gəlməz ortaya yeri deyilsə,
O, əsil sevdanın dili sayılır.
Qısqanclıq sevgidə diri deyilsə,
O sevgi dirikən ölü sayılır.

Sözlərim bu hissdən deməyə çoxdur,
Bir fikir qəlbimin qəti səsidir.
İşə bax, balası, nəvəsi yoxdur,
Qısqanclıq sevginin nəticəsidir.

Nə deyim, bir canda, bir cansa da o,
Bilinmir tərkibi nə elementdir.
Amma məhəbbətdən yaransa da o,
İnamla, ümidlə ekvivalentdir.

## QƏLBİMİN İSTEHSALI

Sevgim də mat qalıb, mənim sevgimə,
Çoxalır günbəgün, artır günbəgün.
Həsrət ola bilmir qənim sevgimə,
Yatmağa yer tapmır, batır günbəgün.

Onsuz xoş hal olmaz, hərəkət olmaz,
Onsuz çovğun olur, qəlbi yaz almır.
Heç nədə ondakı bərəkət olmaz,
Hamıya bölürəm, zərrə azalmır.

O çox qəzəbimin ömrün qısaldıb,
Nə qədər çox olub, mehrə sığıblar.
Elə bil dərimdən əti boşaldıb,
Onun da yerinə sevgi yığıblar.

Yaşamır, can verir, yox olur sönür,
Yaşatsan qazanda, qaşıqda onu,
Təbii olanda, təbibə dönür,
İstidir ən zəif işıq da onu.

Onda şübhə olmaz, onda şəkk olmaz,
Əyri yol istəmir, düz yolu vardır.
Ona özgə yolla yetişmək olmaz,
Onu qazanmağın öz yolu vardır.

O qədər boldur ki, sevgim bu axşam,
Demirəm mirasdır, ata malıdır.
Bir zərrə heç kimdən borc almamışam,
Hamısı qəlbimin istehsalıdır.

## BƏLKƏ QƏLBİMİ DƏ YATIRIM...

Bu gecə yuxumda olmuşdum dəlin,
Bunu qəlb lazımdır dərindən duya.
Qoymurdun oynamaq öyrənim gəlim,
Sən mənim başıma açdığın toya.

Elə bil ilahə enmişdi göydən,
Bənövşə olmuşdun yaxamda mənim.
Görürdü oynamaq bacarmıram mən,
Yuxum oynayırdı, yuxumda mənim.

Saçımı oxşadın həvəslə, ərklə,
Hisslər belə-belə dərinləşirlər,
O qədər şirindin, deyirəm, bəlkə,
İnsanlar yuxuda şirinləşirlər.

Əlamət yox idi dava, dalaşdan,
Tanrı qoymaz məni bağırsız qalım.
Necə almışdınsa ağlımı başdan,
Deyirdim kaş belə ağılsız qalım.

Elə bu yuxuya qaynadı qanım,
Hakim kəsilmişdin çoxusuna sən.
Bəlkə qəlbimi də yatırım, canım
Girəsən onun da yuxusuna sən.



*İlk övladımı qucağıma aldığım gündən düşünürəm dünyamızın da elə bu körpə kimi bizim hamımızın qayğısına ehtiyacı var. O vaxtdan səksən bir yaşımın bu gününə kimi vətənimə, övladıma, anama sevgi ilə dolu şeirlər yazdıqca sahibsiz və kimsəsiz qalan yer kürəsinə də poemalar, şeirlər yazıram. Deyirəm bəlkə səsimi eşidən olar. (F.Q)*

## ƏL SAXLAYIN!

Allah səhnə yaratmışdı
Fəzada yer üzünü.
Tamaşaçı səyyarələr
bizdə görsün özünü.
Adəm, Həvva, bir də İblis
Biri yaxşı, biri gözəl, biri pis...
Səhnə də var, mövzu da var.
Qoyur bizi baş-başa,
Gedir gərgin tamaşa.
İnsanlar örüyüb-artır
Hər yerdə insan səsidir,
fəryadıdır, naləsidir.
Üz-üzədir xeyir-şər!
İnsanların minillərlə
yaratdığını dağıdır
öldürür, yandırır bəşər.
Kainatdan ulduzlar da
Göz qırpmadan baxır bizə
Burda isə
“Olum” - “Ölüm” səhnəsidir!
Hələ pərdə enməyibdi,
Qapanmayıbdı qapılar,
Əl saxlayın!!!
Savaş üçün çox kiçikdi yer kürəsi.
Yaşamağa hər canlıya
Yer üzündə, yer tapılar!
Əl saxlayın!!!

**Fikrət Qoca**
**17.01.2016-cı il**

## TA GƏLMƏ YUXUMA

Ta gəlmə yuxuma, bilirsən niyə?
Canım yuxulara, sanki qul olub.
Səni gözlərindən qoymasın deyə,
Gözlərim yamanca yuxucul olub.

Gülüm tərs üzü də bunun axı var,
Hər gün rast gəlirəm yuxuda sənə.
Daha qaç yuxumdan, qoymur yuxular,
Özünü qəlb aşkar oxuda sənə.

Elə yuxularda, olursan tənim,
Bircə oturmağa taxtın çatmayır.
O qədər gəlirsən yuxuma mənim,
Özünün yatmağa vaxtın çatmayır.

De bir an içində köksünə dolum,
Kədər uzaq olsun, ahı da görmə.
Sən yumma gözünü, qurbanın olum,
Məni yanında gör, yuxuda görmə

Ta gəlmə yuxuma, tək yatım özüm,
Bir günah işlərəm, qəlbim sıxılar.
Birdən əbədilik qapanar gözüm,
Çıxmana yol qalmaz, evim yıxılar.